# Ağdam Teatrı "Günahsızlar"ın sorağında

**Ağdam Dövlət Dram Teatrında Ağdamlı yazar Nadir Qədimlinin əsəri səhnələşdirilib. Belə ki, fevralın 26-da Teatrın səhnəsində "Günahsızlar" əsəri nümayiş olunub.**

"Günahsızlar"ın quruluşçu rejissoru Kərim Həsənli tamaşada xalqımızın başına gətirilən dəhşətli hadisələrə fərqli prizmadan yanaşıb və onu bu günün tamaşaçısına öz yozum tərzi ilə çatdırmağa çalışıb.

Tamaşada ermənilərin xalqımızı doğma yurd-yuvalarından didərgin salması öz əksini tapıb.

Faciə janrında olan tamaşada hadisələr Qərbi Azərbaycanda cərəyan edir. Tamaşa İrəvan şəhərində, Zəngəzur-Dərələyəz obalarında bş verən hadisələrdən bəhs edir. Bu də təsadüfi deyil, çünki bu bizim milli faciəmizin başlanğıcıdır. Əsərin müəllifi Nadir Qədimli həmin faciəni yaşayan insanlardandır. O, şahidi olduğu faciəni qələmə alıb və tamaşa real hadisələr əsasında səhnələşdirilib. Ağdam teatrında artıq müəllifin 3-cü pyesi tamaşaya qoyulur.



Qeyd edək ki, tamaşanın quruluşçu rəssamı Müşfiq Qarayev, musiqi tərtibatçısı Elşən Cəfərovdur. Rolları isə Əməkdar artist F.Yusifova, aktyorlar N.Ələkbərov, X.Xudadatova, F.Fərhadzadə, S.İbrahimov, A.Əhmədova, E.Hümbətov, K.Həsənli, Z.İmamalıyev, E.Cavadov, A.Əliyeva və E. Mürşüdov ifa edirlər.

Kaspi 2020.- 27 fevral.- S.9.